UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.146

ZƏMİNƏ NƏCƏFOVA*

# NAZİM QULİYEVİN "ƏDALƏTSİZ KAMAN" ƏSƏRİ

*Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, bəstəkar, pedaqoq Nazim Quliyev yaradıcılığında görkəmli bəstəkarların yaratdığı ənənələrə əsaslanaraq, müxtəlif janrlı əsərləri ilə professional musiqimizin inkişafında böyük rol oynamışdır.*

*Nazim Quliyev "Ədalətsiz kaman" adlı poemanı 2002- ci ildə ərsəyə gətirir. Bəstəkar bu əsərin yaranma tarixçəsini belə xatırlayır: "Mən bu əsəri böyük sənətkar Ədalət Vəzirovun unudulmaz xatirəsinə həsr etmişəm. Ə. Vəzirovu yaxından tanımırdım, heç vaxt onunla ünsiyyət qurmamışam. Onun ifası, xüsusən də H.Xanməmmədovun kamança konsertinin ifası bu sənətkara qarşı məndə dərin hörmət və sevgi yaratmışdı. Bu səbəbdən də sənətinin vurğunu olduğum bu insanın ölüm xəbəri məndə dərin kədər hissi oyatdı. Bu xəbərdən təsirlənərək 2002-ci ilin qarlı bir qış gecəsində, şam işığında əsəri yazıb bitirdim".*

*"Ədalətsiz kaman" əsəri kamança və simfonik orkest üçün bəstələnmişdir. Daha sonra 2009-cu ildə bəstəkar əsəri xalq çalğı alətləri orkestri üçün işləyir. Əsəri kamança ifaçısı Xəyyam Məmmədov xalq çalğı alətləri orkestri ilə (bədii rəhbər və dirijor Ağaverdi Paşayev) ifa etmişdir.*

*Məqalədə "Ədalətsiz kaman" əsəri kamança və fortepiano üçün köçürülmüş not yazısı əsasında təhlil olunmuşdur. Təhlil zamanı əsərin forma quruluşu, lad intonasiya xüsusiyyəti, metro ritmik cəhətləri və digər musiqi ifadə vasitələri araşdırılmışdır.*

***Açar Sözlər:*** *Azərbaycan, N. Quliyev, musiqi, xalq, çalğı, alət, kamança, ifaçı, bəstəkar, sənətkar, ustad, Ə.Vəzirov*

## Giriş

Azərbaycan musiqi mədəniyyəti tarixində respublikanın Əməkdar İncəsənət Xadimi, bəstəkar, pedaqoq Nazim Quliyevin özünəməxsus yeri vardır. O, öz yaradıcılığında görkəmli bəstəkarların yaratdığı ənənələrə əsaslanaraq müxtəlif janrlı əsərləri ilə professional musiqimizin inkişafında böyük rol oynamışdır.

Nazim Paşa oğlu Quliyev 1950-ci il sentyabr ayının 20-də Naxçıvan şəhərində müəllim ailəsində anadan olmuşdur. Nazimin atası Paşa Quliyev dövrünün savadlı, ziyalı şəxslərindən biri idi. İlk musiqi təhsilini Naxçıvan şəhər Pioner və Məktəblilər evinin tar dərnəyində alan Nazimin ilk müəllimi Səfər Rəcəbov olmuşdur. Daha sonra təhsilini davam etdirən Nazim, Naxçıvan 1 saylı şəhər musiqi məktəbinin tar sinfinə daxil olmuşdur. Nazim hələ məktəbdə oxuduğu illərdən özünün kiçik həcmli əsərlərini – orkestr üçün «Lirik rəqs», «Qaytağı», B.Vahabzadənin sözlərinə «Gör kimi sevdin», E.Əliyevin sözlərinə «Naxçıvan» mahnılarını yazır.

## Əsas təhlil

Bəstəkar 1969-cu ildə tar və Azərbaycan xalq çalğı alətləri orkestri üçün "Nəqşi cahan" adlı "Konsert"ini yazır. O,V.Şekspir, M.P.Vaqif, Y.Əmrə, Aşıq Ələsgər, H.Arif, M.Araz, B.Vahabzadə və b. şairlərin sözlərinə 100-dən artıq mahnı və romanslar yazmışdır [2].

Nazim 1968-ci ildə xəyallarının ardınca çiynində ömür sirdaşı olan tarı ilə ona yad olan böyük şəhərə - Bakıya gəlir. Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin tar sinfinə daxil olur. Bu musiqi ocağında bir sıra adlı-sanlı müəllimlər, gözəl muğam bilicilərindən dərs alır. 1971-ci ildə Nazim Quliyev əməyinin ilk uğurunu qazanaraq, Bakı şəhərində keçirilən "Oxu, tar" müsabiqəsinə təqdim etdiyi "And içmə" mahnısına görə birinci dərəcəli diploma layiq görülür. Nazim Quliyevin professional musiqiçi olmaq, böyük arenalara çıxmaq xəyalı onu 1978-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına gətirib çıxarır. Bu ali musiqi ocağında görkəmli pedaqoq, bəstəkar, xalq artisti, professor Səid Rüstəmovun sinfində oxumaqla yanaşı, bəstəkar Afaq Cəfərovadan bəstəkarlıq dərsləri almışdır.

Yaradıcılıq fəaliyyətini davam etdirərək bu illərdə yazdığı fortepiano üçün "6 miniatür", " 9 prelüd", "Variasiyalar", "Nəqşi-cahan" süitası, B.Vahabzadənin sözlərinə bəstələnmiş "Səninlə", M.Arazın sözlərinə "Dağlar küsüb" romanslarını, M.P.Vaqifin sözlərinə "Adını deməərəm", Aşıq Ələsgərin sözlərinə "Çərşənbə günündə" , A.Qasımovun sözlərinə "Ordubad bağları" və bir sıra mahnılar, kamera-instrumental əsərlər onu məşhurlaşdırır.

1994-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatına məsul katib təyin olunan Nazim Quliyevin bu qurumun fəaliyyətində xidmətləri danılmazdır. Məhz bu illərdə o, özünün daha maraqlı əsərlərini yazır. Kamera orkestri üçün «Cavidi düşünərkən», «Naxçıvan eskizləri», «Xatirə pyesləri», qarışıq xor və xalq çalğı alətləri orkestri üçün «Naxçıvan» kantatası, xor və fortepiano üçün «Naxçıvan axşamları» və bir sıra mahnı və romanslarını buna misal gətirmək olar. Sonra o, Bakıya köçərək Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin direktoru, Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika İncəsənət Gimnaziyasında direktor vəzifələrində çalışmışdır. Nazim Quliyevin 2008-ci ildə yazdığı iri həcmli «İlham və Fərizə» operası onun yaradıcılığında xüsusi yer tutur. İki hissədən ibarət olan operanın librettosu da bəstəkara məxsusdur. Hal hazırda Azərbaycan Milli Konservatoriyasında və İncəsənət Gimnaziyasında pedaqoji fəaliyyətini davam etdirir. 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülüb.

Nazim Quliyev 2002- ci ildə "Ədalətsiz kaman" adlı poemanı ərsəyə gətirir. Bəstəkar bu əsərin yaranma tarixçəsini belə xatırlayır: "Mən bu əsəri böyük sənətkar Ədalət Vəzirovun unudulmaz xatirəsinə həsr etmişəm. Ə.Vəzirovu yaxından tanımırdım, heç vaxt onunla ünsiyyət qurmamışam. Onun ifası, xüsusən də H.Xanməmmədovun kamança konsertinin ifası bu sənətkara qarşı məndə dərin hörmət və sevgi yaratmışdı. Bu səbəbdən də sənətinin vurğunu olduğum bu insanın ölüm xəbəri məndə dərin kədər hissi oyatdı. Bu xəbərdən təsirlənərək 2002-ci ilin qarlı bir qış gecəsində, şam işığında əsəri yazıb bitirdim". Əsərin adı bəstəkarı uzun müddət düşündürür. Bəstəkar bu əsərin sonluğuna H. Xanməmmədovun kamança konsertinin II hissəsindən başlanğıc motivini verməklə Ədalət Vəzirovun ifasını dinləyicinin yadına salır. Ədalətsiz qalmış kamanın iniltisini yaratdığı poemada canlandıran N. Quliyev uzun müddət əsərin adı haqqında düşünür. "Ədalətsiz kaman" əsərə verilmiş ən doğru ad olaraq bəstəkarın fikrindən keçir [1].

Musiqişünas Güllü İsmayılova 2003-cü ilin noyabrında Azərbaycan Bəstəkarlar İttifaqının Plenumunda bu əsər haqqında belə qeyd etmişdir: "N.Quliyevin məşhur kaman ustası, mərhum Ədalət Vəzirova ithaf edilmiş əsəri insanın qəlbində ifaçını yada salan lirik duyğuları oyatdı".

"Ədalətsiz kaman" əsəri kaman və simfonik orkest üçün bəstələnmişdir.Onu da qeyd edək ki, bu əsəri kamança ifaçısı Xəyyam Məmmədov xalq çalğı alətləri orkestri ilə (bədii rəhbər və dirijor Ağaverdi Paşayev) ifa etmişdir. Lakin təhlilimizdə bu əsərin kamança və fortepiano üçün köçürülmüş not variantına əsaslanmışıq [WEB 1].

Bu təhlildə əsərin forteoiano və kamança üçün köçürülmüş variantına əsaslanmışıq. Əsər a+b+c+$b_1$+coda quruluşundadır. Bu əsər Andante sostenuto tempində, 6\8 ölçüdə fortepianonun giriş xanələri ilə başlayır. 8 xanəlik giriş xanələrindəki səslənmələr Bayatı-şiraz intonasiyasına əsaslanır.

## Ədalətsiz kaman




Əsərin a bölümü kaman alətinin sinkopalı səslənməsi ilə başlayır. Bu səslənmələrdə lirik, həzin xarakter özünü büruzə verir. Bu zaman müşayiətdə oktavalı bas səsləri və sağ əldə akkordların fonunda sol əldə dalğavari hərəkətlər özünü büruzə verir. Bu hissədə sual cümlə 10, cavab cümlə isə 5 xanədən ibarətdir. Bu perioddakı səslənmələr bayatı-şiraz intonasiyasına əsaslanır və mi bayatı-şiraz məqamının səssırasına uyğunluq təşkil edir. A bölümündə sual və cavam cümlələr yenidən səslənir və bu zaman xüsusən sual cümlədə kamançanın partiyası variantlı səslənmələrlə təqdim olunur.







Əsərin b bölümü kamançanın müşayiətsiz ifası ilə başlayır və bir xanə sonra müşayiət daxil olur. Bu bölümdə sual cümlə 10, cavab cümlə isə 3 xanədən ibarətdir. Burada cavab cümlənin səslənməsindən sonra müşayiətdə cavab cümlənin musiqi materialı əsasında interlüdiya səslənir. Bu səslənmələr yuxarı zil səslərə istiqamətlənmiş və variantlı şəkildədir. Bu da b bölümünün yenidən yuxarı oktavada (kamançanın 1-ci simində) səslənməsi üçün zəmin yaradır. Bölümün oktava yuxarı səslənmələri əvvəlkindən fərqli olaraq genişlənmiş şəkildədir. Bu hissədə kamançanın partiyasında melizmlərin geniş istifadəsi diqqəti cəlb edir.




B bölümündən sonra müşayiətdə 11 xanəlik interlüdiya səslənir. İnterlüdiya b bölümünün cavab cümləsinin musiqi materialı əsasındadır. Bu səslənmələr zamanı yuxarı istiqamətlənmiş oktavalı, akkordlu səslənmələr kulminasiyanı yaradır. Bu səslənmələr kamançanın partiyasında davam etdirilir və c bölümünə keçid özünü büruzə verir. Bu hissədə müşayiət və kamançanın sual-cavab şəkilli ifalarına rast gəlinir. Bu səslənmələrdə kamança virtuozluq sərgiləyir. Burada c bölümü kiçik bir period şəkildə səslənir və dərhal $b_1$ bölümünə keçid baş verir.




Bu bölüm bir daha bir oktava yuxarı səslənir və dərhal sonra yenidən müşayiət partiyasının 7 xanəlik interlüdiyası daxil olur. Yenidən bu səslənmələrdən sonra kamança və müşayiətin sual-cavab ifalarına rast gəlinir. Burada kamançanın ifasında triol səslənmələr üstünlük təşkil edir.

Əsərin kodası bəstəkar tərəfindən çox maraqlı bir şəkildə təqdim edilir. Belə ki, bəstəkar burada Hacı Xanməmmədovun kamança və simfonik orkestr üçün bəstələdiyi konsertin 2-ci hissəsinin musiqi materialını daxil etmişdir. Onu da qeyd edək ki, H.Xanməmmədov 1989-ci ildə qələmə aldığı kamança ilə simfonik orkestr üçün A-dur Konserti emosional məzmunlu melodiyası, lirik, nikbin obrazlı hissələrinin olması baxımından seçilir. Konsert ilk olaraq istedadlı kaman ustası mərhum Əməkdar artist Ədalət Vəzirovun ifasında Azərbaycan Dövlət Televiziya və Radiosunun simfonik orkestrinin müşayiəti ilə (dirijor Ramiz Məlikaslanov) səsləndirilmişdir [WEB 2]

Bu da əsərin orijinallığını və bəstəkar təfəkkürünün özünəməxsus yanaşmasını vurğulayır.

**Nəticə**

N.Quliyevin «Ədalətsiz kaman» əsəri üslub baxımından S.Rüstəmov, C.Cahangirov, H.Xanməmmədov ənənələri üzərində qurulub və bu ənənələrdən kənara çıxmayıb.

N.Quliyevin mərhum kamançaçalan Ədalət Vəzirova ithaf etdiyi «Ədalətsiz kaman» əsəri çox incə, təsirli səslənir. Bu əsər insanın qəlbində ifaçını yada salan lirik duyğuları oyadır. Lakin məhz xalq çalğı alətləri orkestrində səslənməsi baxımından bu, ənənəvi formaların hüdudlarını genişləndirir, intonasiya dairəsini zənginləşdirir. Belə əsərlər dinləyicilərin də musiqi zövqünü və duyumunu inkişaf etdirməyə qadirdir.

Bəstəkar N.Quliyev 2002-ci ildə bu əsəri A.Zeynallı adına Musiqi Kollecinin kamança müəllimi Adgözəl Əliyevə göstərir. A.Əliyev əsəri ifa etmək üçün tələbəsi Elnur Əhmədovu bəstəkara məsləhət görür. Səsləndiyi ilk gündən etibarən bu əsər kamança ifaçıları tərəfindən sevə-sevə ifa olunur. Böyük sevgi qazanan "Ədalətsiz kaman" poemasını bəstəkar 2009-cu ildə xalq

çalğı alətləri orkestri üçün işləyir. Xalq çalğı alətlərinin müşayiəti ilə əsəri istedadlı kamança ifaçısı Xəyyam Məmmədov ifa etmişdir.

Əsəri dinlədikcə xalq çalğı alətləri orkestrinə uyğun üslub tərzinin nə dərəcədə dəyişməsini, yeniləşməsini və müasirləşməsini izləmək maraqlı idi. Müasir nəslin nümayəndələri elə fikirləşir ki, xalq çalğı alətləri orkestri üçün elə 30-40-cı illərin üslubunda yazmaq kifayətdir. Əlbəttə, bu çox yanlış fikirdir. Yeni axtarışlar və tapıntılar bu sahəyə də sirayət etməlidir.

## ƏDƏBİYYAT

1.Vəliməmmədova A. Ulusal orkestra ve topluluklarda kemençenin yeri ve önemi. Uluslararası müzik ve dans kongresi. Bakı,2021
2.Nəcəfova Z. Azərbaycan xalq çalğı alətləri orkestri və süita janrının bəstəkar yaradıcılığında yeri. Naxçıvan, "Qızıl Dağ" 2012, 244səh.
3.WEB 1https://www.youtube.com/watch?v=cZ20JoUDmrM
4.WEB 2https://www.youtube.com/watch?v=XRa8qUJuxFk

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
***Naxçıvan Dövlət Universiteti***
***E-mail: zeminenecefova@ndu.edu.az***

**Zamına Najafova**

## NAZIM GULIYEV'S "UNJUSTICE BOW"

Honored Art Worker of the Republic of Azerbaijan, composer, and teacher Nazim Guliyev, based on the traditions created by prominent composers in his work, played a major role in the development of our professional music with his works of various genres.

Nazim Guliyev created the poem "Unjust Bow" in 2002. The composer recalls the history of the creation of this work as follows: "I dedicated this work to the unforgettable memory of the great artist Adalat Vezirov. I did not know A. Vezirov closely, I never communicated with him. His performance, especially the performance of H. Khanmammadov's kamancha concerto, created deep respect and love for this artist in me. Therefore, the news of the death of this person, whose art I admired, aroused a deep sense of sadness in me. Moved by this news, I wrote and finished the work by candlelight on a snowy winter night in 2002."

The work "Adalatsiz kaman" was composed for kamancha and symphony orchestra. Later, in 2009, the composer worked on the work for a folk instrument orchestra. The work was performed by kamancha player Khayyam Mammadov with the folk instrument orchestra (artistic director and conductor Agaverdi Pashayev).

The article analyzes the work "Unjust Bow" based on the transcribed notation for kamancha and piano. During the analysis, the work's form structure, tone intonation characteristics, metro-rhythmic aspects and other means of musical expression were investigated.

**Keywords**: *Azerbaijan, N. Guliyev, music, folk, instrument, instrument, kamancha, performer, composer, artist, master, A. Vazirov*

**Замина Наджафова**

## «СМЫЧОК НЕСПРАВЕДЛИВОСТИ» НАЗИМА ГУЛИЕВА

Заслуженный деятель искусства Азербайджанской Республики, композитор и педагог Назим Гулиев, опираясь на традиции, созданные выдающимися композиторами, в своем творчестве сыграл важную роль в развитии нашей профессиональной музыки своими произведениями различных жанров.

Назим Гулиев создал стихотворение «Несправедливый поклон» в 2002 году. Композитор вспоминает историю создания этого произведения следующим образом: «Я посвятил это произведение незабываемой памяти великого артиста Адалата Везирова. Я не был близко знаком с А. Везировым, никогда с ним не общался. Его исполнение, особенно исполнение концерта для каманчи Г. Ханмаммадова, вызвало во мне глубокое уважение и любовь к этому артисту. Поэтому известие о смерти этого человека, чьим искусством я восхищался, пробудило во мне глубокое чувство печали. Тронутый этой новостью, я написал и закончил произведение при свечах снежной зимней ночью 2002 года».

Произведение «Адалатский поклон» было написано для каманчи и симфонического оркестра. Позже, в 2009 году, композитор работал над произведением для оркестра народных инструментов. Произведение исполнил исполнитель на каманче Хайям Мамедов с оркестром народных инструментов (художественный руководитель и дирижер Агаверди Пашаев).

В статье анализируется произведение «Несправедливый смычок» на основе транскрибированной нотации для каманчи и фортепиано. В ходе анализа исследовались структура формы произведения, тонально-интонационные характеристики, метроритмические аспекты и другие средства музыкального выражения.

**Ключевые слова:** *Азербайджан, Н. Гулиев, музыка, народная, инструмент, каманча, исполнитель, композитор, артист, мастер, А. Вазиров*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.07.2025**
**Son daxilolma tarixi:08.08.2025**